## Səfər FUAD (ABŞ)



***

Üç şey oğurlamışdım:
Tanrıdan bir qismət azadlıq...
Nazimin şeirindən bir parça –
bazar səhərinin günəşi...

Və dörd yaşında
qaranlıqda ağlayan uşağın
bir-iki damcı göz yaşı...
Azadlığımı sahibi geri aldı.
Günəşim səndə.
O uşaqsa heç böyümədi...
İçimdəki qaranlıqda ağlayır hələ də...

***

Və bir gün gələcək...
qucaqlamağın heç bir işə yaramadığı
o gün...
anlayacaqsan
illərlə qəlbində daşıdığın bu adamın,
sadəcə, daş bir heykələ çevrildiyini.

Və sən
illərin ən imanlı bütpərəsti kimi
sarılacaqsan nəfəs alan bu daş heykələ.

Ən böyük hesab etdiyin heykəl Tanrı –
illərin deyil,
sənsizliyin yonub düzəltdiyi
heykəl Tanrı,adam, ya da hər nəsə –
o gün anlayacaqsan,
qucaqlamaq artıq heç bir işə yaramaz –
üşütməkdən başqa.